# MÜASİR DÖVRÜN MEMARLARI

## Altay Mir-Bağırov



Altay Seyid Hüseyn oğlu Mir-Bağırov 4 oktyabr 1934-cü ildə Bakı şəhərində anadan olub. 1941-1949 illərdə Bakı şəhəri Nizami rayonunun 201 saylı orta məktəbini əla qiymətlərlə bitirib, 1947-1949-cu illərdə Pionerlər sarayında təsviri sənət dərnəyində məşğul olub. O, 1949-1953-cü Bakı Neft texnikumunda Neft quyularının qazınması texniki ixtisas üzrə tam təhsil alıb. Altay Mir-Bağırov 1953-1955-ci illərdə Stalinqrad (indiki Volqoqrad) şəhərində Sovet Ordusu sıralarında xidmət edib və leytenant rütbəsi alıb.

Altay Mir-Bağırov 1956-1962-ci illərdə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) Memarlıq fakültəsində oxuyub, "Çoxmərtəbəli ramplı qaraj" mövzusunda diplom işinini müvvəffəqiyyətlə müdafiə edib. 1962-1963-cü illərdə təyinat üzrə Novokuznetsk şəhərində "Sibir Promproekt" layihə institutunda memar vəzifəsində işləyib. O, 1963-1965-ci illərdə "Azərenerji" idarəsində tikinti sahəsində çalışıb. 1966-cı ildə SSRİ Memarlar İttifaqının üzvü olub.

Altay Mir-Bağırov 1965-ci ildə Validə Baladadaş qızı Mir-Bağirova ilə ailə qurub.

1965-2002-ci illərdə Moskva" Kurortlayihə" İnstitutunun Azərbaycan şöbəsində memar, layihələrin baş memarı, memarlıq və tikinti emalatxanasının rəisi vəzifələrində çalışıb. 2002-ci ildən 2009-cu ilə qədər "Azərinşaatlayihə" İnstitutunda Memarlıq şöbəsinin rəisi vəzifəsində işləyib.

21 noyabr 2011-ci ildə Bakı şəhərində dünyasını dəyişib.

Tanınmış memardan bizə qalan yadigarlar isə Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda layihələndirdiyi binalardır: 1998-2004-cü illərdə paytaxtda, o cümlədən ölkəmizin müxtəlif şəhərlərində şəhid ailələri və əlillər üçün yaşayış binaları (36 yerdə, 4 mərtəbəli, 3 seksiyalı, 36 mənzilli), 2008-2009-cu illərdə isə 9 mərtəbəli 81 mənzilli və 4 mərtəbəli 36 mənzilli yaşayış evləri (yeni variantda), 2003-2004-cü illərdə Göygöl rayonunun Çaykəndi kəndində xəstəxana, 1966-1967 illərdə Qəbələ rayonunda 400 yerlik "Qafqaz" turbazası, Naftalan şəhərində 1973-1975-ci illərdə "50 sərnişinlik aeroport - hava limanı (K.Səidov ilə birlikdə), 1982-1983-cü illərdə "Geran" sanatoriyası, 1989-1993-cü illərdə kurort sanatoriyasının poliklinikası, 2007-ci ildə Şəmkir rayonunda İdman Olimpiya Kompleksi üçün "Kottej - yaşayış evi", 2003-2004-cü llərdə Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi 79 ünvanında bir bloklu, 17 mərtəbəli, 12 maşın üçün qarajı və 2 səviyyəli mağazaları olan yaşayış binası, 1981-ci ildə Pirşağı qəsəbəsində Veteran sanatoriyasında əyləncə, oyun və yay kinoteatrı, 2008-ci ildə Fövqəladə Hallar Nazirliyi üçün Türkan qəsəbəsində, Lənkəran və Gəncə şəhərlərində növbətçi qülləsi, inzibati bina, hərbi qərargah, 2007-ci ildə Cəlil Məmmədquluzadə küçəsi, 3 ünvanında Müdafiə Nazirliyinin Hərbi Hospitalı, məktəb binaları və sairə tikililəri layihələndirib.

Azərbaycan Respublikası Dövlət Elm və Texnika sənədləri Arxivində Azərbaycan memarı Altay Səid Hüseyn oğlu Mir-Bağırova həsr olunmuş 162 №-li şəxsi fondu açılıb. Altay Mir-Bağırovun sənədlərinin şəxsi Arxivi fondunda Azərbaycan və keçmiş SSRİ məkanında 1965-2009-cu illəri əhatə edən layihələri elmi-texniki ekspertizadan keçirilib, onun fəaliyyətinin tarixi əhəmiyyəti nəzərə alınaraq, Arxivin Zəngin və qiymətli materialları fonduna daxil edilib.

## Elbay Qasımzadə



Elbay Qasımzadə 26 dekabr 1948-ci ildə Bakı şəhərində anadan olmuşdur. Ənvər Qasımzadənin oğludur. 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirib.

1971–1975-ci illərdə landşaft memarlığı problemləri üzərində çalışmış, təbii landşaft, Bakı şəhərinin müxtəlif rayonlarında ucaldılan tikililərin harmonizasiyası və s. bu kimi məsələlərlə dərindən məşğul olmuşdur. 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aspiranturasında şəhərsalma problemləri ilə məşğul olmuşdur.

1975–1989-cu illərdə Respublika Kənd ərazilərində İnşaatın layihələndirilməsi İnstitutunda işləmiş, bir sıra kiçik yaşayış məntəqələrinin baş planlarının müəllifi olmuşdur. Həmin dövrdə "Saman memarlığı" adlı Beynəlxalq proqramın problemləri ilə də sıx məşğul olmuşdur, bu sahədə həyata keçirilən müxtəlif layihələrin müəllifidir.

1989–2001-ci illərdə Bakı şəhərinin baş memarı, Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma üzrə Baş İdarəsinin rəisi vəzifələrində çalışıb.

Elbay Qasımzadə Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin professorudur. Azadlıq prospekti metrostansiyasının memarıdır.

1998-ci ildə "El&En" memarlıq şirkətini təsis etmiş və hal-hazırda da ona başçılıq edir.

150-dən artıq layihənin, 80-dən artıq məqalənin və 8 kitabın müəllifidir.

Elbay Qasımzadə Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü və vitse-prezidenti, Beynəlxalq Memarlıq Akademiyasının (UNESKO) və Beynəlxalq Memarlar İttifaqının (UİA) professorudur. MDB ölkələrinin Memarlar İttifaqları Assosiasiyası tərəfindən keçirilən "İlin ən yaxşı layihəsi (tikilisi)" beynəlxalq baxış-müsabiqələrdə dəfələrlə iştirak etmiş və 34 diplomla təltif edilmişdir. MDB ölkələrinin paytaxtlarının baş memarları Şurasının ilkin sədri seçilmişdir. Çikaqo, Barselona, Lozanna, Pekin, Turin və Tokio şəhərlərində keçirilən Ümumdünya konqreslərin iştirakçısıdır.

170-dən çox layihənin müəllifidir.



***Akademik Zərifə Əliyevanın Fəxri Xiyabandakı məzarı üstü abidəsi (heykəltaraş Ö. Eldarov)***

**"Əbədi məşəl" abidəsi**



Hər bir abidə tariximizin "yaşayan" bir parçası olmaqla bərabər, həmin dövrün qədirbilən və yaradıcı insanlarının xidmətlərini özündə təcəssüm etdirir. Bu baxımdan 20 YANVAR faciəsi şəhidlərinin xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidə kompleksinin necə yaranmasını, həmçinin yaradıcılarını tanımaq və tanıtdırmaq hər birimizin borcudur.

"Əbədi məşəl" abidə kompleksinin yaradılması fikri ilk dəfə 1994-cü ildə irəli sürülüb. Milli Məclisdə bu faciəyə qiymət verilərkən Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün abidə yaradılması qərarı da qəbul olunur. O bu məsələni şəxsi diqqətində saxlayır, yaradılmış komissiyaya tapşırıq və tövsiyələrini verir: memar və heykəltəraşlara öz təsirliliyinə, məzmununa, səviyyəsinə görə böyük həcmli əsərdən də çox qiymətli olacaq bir abidə yaratmağı tapşırır. Bir il sonra, faciənin beşinci ildönümündə keçirilmiş sərgidə ona iki layihə təqdim olunur.

Hazırlanmış layihələr yalnız faciəni əks etdirdiyi üçün Prezident Heydər Əliyevi qane etmir, o daha bir neçə layihənin hazırlanmasını tapşırır. Tapşırıq ondan ibarət olur ki, yaradılacaq abidə faciəni də, xalqın qəhrəmanlığını da, təcavüzü də əks etdirməlidir.

Keçirilən müsabiqədə Əməkdar memar Elbay Qasımzadənin rəhbərlik etdiyi Layihələndirmə şirkətinin işləyib hazırladığı layihə seçilir. Heydər Əliyev 5 avqust 1998-ci il tarixində Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması haqqında sərəncam verir.

Kompleksin açılışı 9 oktyabr 1998-ci il tarixində olmuşdur. Abidə səkkizguşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən, tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir

Sərdabənin divarlarını zərif şəbəkə bəzəyir. Gecə səmasında parlayan qızılı rəngli günbəz Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərin ruhunu təcəssüm etdirir.

2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilmiş, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənmişdir.

Bu gün Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yeri, inam yeri olmuş mötəbər ziyarətgahdır.

## "Azadlıq prospekti" Metro stansiyası




"Azadlıq Prospekti" Azərbaycanda platforması sütunsuz olan ilk metrostansiyadır.

"Azadlıq Prospekti"nin digər stansiyalardan əsas fərqi də bundan ibarətdir. Stansiyanın yerləşdiyi yer layının süxurları əsasən əhəng daşından ibarət olduğundan platformanı sütunsuz inşa etmək mümkün olub. 15 metr dərinlikdə yerləşir.

Stansiyanın memarı Elbəy Qasımzadədir. Stansiyanın daxili sistemlərinin qurulmasında Türkiyə, Rusiya, Almaniya və digər ölkələrdən gətirilmiş avadanlıqlardan istifadə olunub.

Stansiya 30 dekabr 2009-cu ildə istifadəyə verilmişdir. Açılışında prezident İlham Əliyev iştirak etmişdir.

## Bakıda maestro Niyazinin heykəli



Niyazinin heykəli — Bakı şəhərində məşhur azərbaycanlı dirijor və bəstəkar, Azərbaycan Dövlət simfonik orkestrinin baş dirijoru, Azərbaycan Dövlət Filarmoniyasının direktoru (1979-cu ildən), SSRİ xalq artisti (1959), 2 dəfə Stalin mükafatı və 2 dəfə "Lenin" ordeni laureatı, Beynəlxalq Nehru mükafatı laureatı (1974), Sosialist Əməyi Qəhrəmanı (1982) Niyazinin şərəfinə ucaldılmış heykəl.

Abidənin hündürlüyü 3, pyedestalının hündürlüyü isə 1 metrə yaxındır. Heykəlin üst plitəsi royalın qapağı formasındadır. Abidənin pyedestalı isə qara qranitdən hazırlanıb. Bürüncdən hazırlanan heykəlin müəllifi Xalq Rəssamı Ömər Eldarov, memarı isə Əməkdar Memar Elbay Qasımzadədir. Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Ömər Eldarov heykəl barədə bunları demişdir:

Bəli, bu, mənim sonuncu işimdir. Heykəl bürüncdəndir. Kompozisiyada - Niyazi dirijorluq edərkən təsvir olunub. Bu planda Niyazi çox plastik və təsirlidir. Abidənin hündürlüyü 3 metrdir. Qranitdən olan pedestal hansısa mənada royalı təcəssüm edir. Niyazi çox yaxşı drijorluq edirdi. Mən bundan istifadə etdim və onun hərəkətlərini daha ifadəli çatdırmağa çalışdım. Buna nə dərəcə nail olduğumu ictimaiyyət deyəcək. Abidə Prezident Adminstrasiyasının binasından bir qədər aralıda, Niyazi küçəsində ucaldılıb. Ətrafda fəvvarələr və 2 şəlalə olacaq. Axan su kompleksinin ortasında o, dirijorluq edir. Bu, çox cazibədardır, ona görə də, mən bu işə razılaşdım.

Heykəlin açılışı 2 fevral 2017-ci il tarixində baş tutmuşdur. Heykəlin açılışına prezident İlham Əliyev, Bakı Musiqi Akademiyasının rektoru, Xalq Artisti Fərhad Bədəlbəyli, bəstəkar, Xalq Artisti Faiq Sücəddinov, beynəlxalq müsabiqələr laureatı, dirijor Əyyub Quliyev, Xalq Rəssamı, heykəltaraş Ömər Eldarov da qatılmışdırlar.

**Elçin Tofiq oğlu Əliyev**



Elçin Tofiq oğlu Əliyev 1967-ci il sentyabrın 18-də Bakı şəhərində anadan olmuşdur. 1974–1984-cü illərdə 160 nömrəli orta məktəbdə oxumuşdur. 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsinə daxil olmuş, 1989-cu ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1987-ci ildə Slovak Ali Texniki Məktəbində istehsalat təcrübəsi keçmişdir.

1998-ci ildə "Bakı şəhərinin mərkəzində şəhər mühitinin sosial-məkan quruluşu" mövzusunda memarlıq üzrə namizədlik dissertasiyasını müdafiə etdi. 2014-cü ildə Elçin Əliyev "Azərbaycanda müasir interyerin dizaynı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

2015-ci ildən Elçin Əliyev Qərb Universitetinin professorudur. O, Qərb Universitetinin Dövlət Attestasiya Komissiyasının sədridir.

Elçin Əliyevin müəllifi olduğu iki nəşr: "Məkanların Astanasında. Bakı tarixini yazan qapılar. 1867–1913 illər" və "Bakı memarlıq abidələrində fasad heykəltəraşlıq nümunələri" Heydər Əliyev Fondu tərəfindən çap olunub. Digər kitab isə, "Konstruktivizm dövrü. XX əsrin 1920–1930-cu illərinin Bakı memarlığı", Azərbaycan Respublikası Prezidentinin sərəncami əsasında Dövlət proqramı çərçivəsində çap olunub.

Memar fəaliyyəti

2004–2005-ci illərdə Bakı şəhərində Katolik Kilsəsinin layihə və inşası ilə bağlı bütün məsələlər üzrə Roma Katolik Kilsəsinin Azərbaycanda səlahiyyətli nümayəndəsi təyin olunmuşdur.

2007-ci ildə Elçin Əliyevin layihəsinə əsasən (memar Paolo Rugeiro ilə birlikdə) Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi kilsəsi inşa edilmişdir.

2011-ci ildə memar Elçin Əliyevin layihəsi əsasında Qəbələ rayonunun Nic kəndində yerləşən "Jotari" kilsəsi yenidən bərpa olunmuşdur.

2014-cü ildə Durbanda keçirilən XXV Dünya Memarlar Konqresində Beynəlxalq Memarlar İttifaqının Gənclərlə İş üzrə Komissiyasının üzvü seçildi.

2016-cı ildə Elçin Əliyevin layihəsi əsasında Zirə kəndində Aydın Qurbanovun xatirəsinə Heydər Əliyev Fondu və Səməd Qurbanov tərəfindən Cümə məscidi inşa edilmişdir.

Elçin Əliyev 2008-ci ildə Turində keçirilən, 2011 ildə Tokioda keçirilən, 2014 ildə Durbandakeçirilən Ümumdünya Memarlıq Konqresslərinin üzvü olmuşdur.

İctimai-siyasi fəaliyyəti

Elçin Əliyev 1988-ci ildə Ümumittifaq Gənc Memarlar Cəmiyyətinin Zaqafqaziya şöbəsinin sədri seçilmişdir.

O, 1989-cu ildən Azərbaycan Memarlar İttifaqının, 1998-ci ildən Azərbaycan Dizaynerlər Birliyinin, 2018-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1994-cü ildən Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü olmuşdur. 2012-ci ildən 2017-ci ilə qədər Azərbaycan Memarlar İttifaqı İdarə Heyəti sədrinin müavini vəzifəsində çalışmışdır. O, 2015-ci ildə ittifaqın Gəncə bölməsinin məsul katibi seçilmişdir.

2016-cı ildə Elçin Əliyev Bakı Memarlıq Klubunun prezidenti seçilib. 2017-ci ildə Elçin Əliyev (yazıçı G. A. Rzayeva ilə birlikdə) "Pəncərə – mədəniyyətə baxış" İntellektual Klubunu təsis edir.

Elçin Əliyev hal-hazırda Beynəlxalq Memarlar İttifaqının Gənclərlə İş üzrə Komissiyasının üzvüdür.

Elçin Əliyev 2021-ci ildən Respublikaçı Alternativ Partiyası üzvüdür. O, partiyanın Siyasi Komitəsinin üzvü və Mədəniyyət Komitəsinin sədridir.

Elçin Əliyev 2024-cü il parlament seçkilərində 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə Respublikaçı Alternativ Partiyasının deputatlığa namizədi olmuşdur.

**Ənvər Qasımzadə**



Azərbaycanın görkəmli memarı və dövlət xadimi Ənvər Əlibəy oğlu Qasımzadənin anadan olmasından 100 il keçir. Ənvər Qasımzadə 1912-ci il fevralın 12-də Bakı quberniyasının Salyan şəhərində tanınmış maarifçi, Azərbaycanda rus dili və ədəbiyyatı üzrə ilk müəllimlərdən olmuş Əlibəy Qasımovun ailəsində dünyaya göz açmışdır.

Ailədə təhsilə, savada olan xüsusi münasibət Ənvərə də sirayət etmiş, onun ömür yolunu müəyyənləşdirmişdir. Bunu demək kifayətdir ki, Əlibəy Qasımov böyük rus ədibi, qraf Lev Tolstoyla geniş yazışma aparmış və bir neçə dəfə Yasnaya Polyanada onu ziyarət etmişdir. Bundan başqa, Əlibəy Qasımov Bakı Dövlət Universitetinin təşkilatçılarından biri olmuşdur.

Ənvər Qasımzadə ilk təhsilini Bakı Müəllimlər Seminariyasının nümunəvi məktəbində almışdır. 1930-cu ilin dekabrında N.Nərimanov adına Azərbaycan Sənaye Texnikumunun inşaat şöbəsini bitirmiş və M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna göndərilmişdir. 1936-cı ildə burada ali təhsilini bitirmiş və mühəndis-me'mar ixtisasına yiyələnmişdir.

Hələ tələbəlik dövründən - 1934-cü ildən əmək fəaliyyətinə başlamış, "Azəridövlətlayihə" təşkilatında çalışmışdır. Həmin dövrdə həmçinin Bakı İnşaat Texnikumunda dərs demişdir. 1941-ci

ildə Azərbaycan SSR Kommunal Təsərrüfatı Xalq Komissarlığı yanında Mənzil Kommunal Baş İdarəsinin rəisi və eyni zamanda, Bakı İnşaat Texnikumunun direktoru vəzifələrinə təyin edilmişdir.

1942-ci ilin əvvəllərində könüllü zabitlər hazırlığı kurslarına daxil olmuş və aprel ayından Böyük Vətən muharibəsində iştirak etmişdir. Terek sahillərindən Berlinə qədər döyüş yolu keçmişdir. "Qırmızı Bayraq", "Qırmızı Ulduz", I və II dərəcəli "Böyük Vətən müharibəsi" ordenləri ilə və altı medalla təltif edilmişdir.

1946-cı ilin iyununda Azərbaycan hökümətinin müraciəti əsasında hərbi xidmətdən geri çağrılmışdır. 1947-ci ildən Azərbaycan SSR Nazirlər Sovetinin Memarlıq İşləri üzrə İdarəsinin rəisi, 1951-1953-cü illərdə Baki Şəhər Soveti İcraiyyə Komitəsi sədrinin I müavini, 1953-1955-ci illərdə tikinti naziri, 1955-1957-ci illərdə Dövlət Tikinti Komitəsinin sədri, 1957-1959-cu illərdə nazir - Dövlət Plan Komitəsi sədrinin I müavini vəzifələrində çalışmışdır.

Bu illər ərzində Ənvər Qasımzadə Azərbaycanda tikinti proseslərinin yüksək sənaye səviyyəsinə qaldırılması, milli memarlıq sənətinin inkişafı sahəsində böyük işlər görmüşdür. O çalışırdı ki, müasir Azərbaycan memarlığında yüzillərlə toplanmış tarixi irsimiz, milli çalarlarımız, ornamentlərimiz geniş tətbiq olunsun, özünəməxsusluğunu itirməsin.

Ə.Qasımzadə 1959-cu ildə Azərbaycan Memarlar İttifaqına rəhbərlik etmiş, 1962-ci ildə Azərbaycan Politexnik İnstitutuna rektor təyin olunmuşdur. Burada da onun böyük nailiyyətləri olmuşdur. İnstitutun genişlənməsi, yeni fakültələrin açılması üçün səylərini əsirgəməmişdir. Onun rektorluğu dövründə Azərbaycan Politexnik İnstitutunun Gəncə şəhərində filialı açılmış, avtomatika, sintetik materialların texnologiyası, metallurgiya və poliqrafiya fakültələri təşkil edilmişdir.

Ənvər Qasımzadə 1964-cü ildə memarlıq doktoru olmuş, 1966-cı ildə professor, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. O, "Əməkdar inşaatçı" fəxri adı ilə təltif olunmuşdır. Harada işləməsindən asılı olmayaraq Ənvər Qasımzadə daim yaradıcılıqla məşğul olmuşdır. Onun layihələri əsasında Bakıda, Gəncədə, Daşkəsəndə, Xankəndidə onlarca yaşayış evi və ictimai binalar ucaldılmışdır.

Bunlardan Bakının Azərbaycan prospektindəki (keçmiş Hüsü Hacıyev küçəsi), İnşaatçılar prospektindəki, keçmiş Şimali Sovet meydanındakı, Ağa Nemətulla küçəsindəki evləri, hazırda Gömrük Komitəsi və Maliyyə Nazirliyinin inzibatı binalarını, Bakixanov küçəsindəki Azərbaycan Tibb Universitetinin əsas korpuslarını, metronun "Ulduz" stansiyasını və başqalarını yada salmaq kifayətdir. Ənvər müəllim 60-dan çox elmi məqalənin və 7 monoqrafiyanın müəllifidir.

Ənvər Qasımzadə dəfələrlə Bakı Şəhər Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat, Azərbaycan Kommunist Partiyasının Bakı Şəhər Komitəsinə və Azərbaycan KP Mərkəzi Komitəsinə üzv seçilmişdir.

Ə.Qasımzadə 1969-cu il mart ayının 12-də 57 yaşında vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdır. Bakıda və Salyanda onun adına küçələr vardır.

Ənvər Əlibəy oğlu Qasımzadənin Azərbaycan xalqının qəlbində tanınmış ictimai xadim, görkəmli memar, xeyirxah, vətənpərvər və təvazökar insan kimi yeri əbədidir.



**"Ulduz" metrostansiyası** — Bakı metrosunun Qırmızı xəttinin stansiyasıdır. Stansiyaya daxil olan qatarlarda Tofiq Quliyevin bəstələdiyi "Tez Gəl" mahnısından fraqment səslənir. "Nəriman Nərimanov" və "Koroğlu" stansiyaları arasında yerləşir.

Tarixi

Stansiya 5 may 1970-ci ildə istismara verilmişdir. "Ulduz" stansiyası istifadəyə verilməklə Bakı metrosunun Qırmızı xəttin uzunluğu daha 1,5 km artdı.

28 oktyabr 1995-ci il Bakı metrosunun "Ulduz" stansiyasından "Nərimanov" stansiyası istiqamətində hərəkət edən qatarda yanğın baş verib. Bu hadisə tarixin ən böyük metro qəzası sayılır.

**Fuad Seyidzadə**



Fuad Seyidzadə 1938-ci ildə Bakı şəhərində, ziyalı ailəsində anadan olub. Fuadın atası Bağır Seyidzadə dövrünün məşhur ictimai-siyasi və mədəniyyət xadimlərindən biri idi. Bir müddət Təbrizdə konsul olan Bağır Seyidzadə ailəsi ilə birlikdə İranda yaşayıb. Məktəbə də ilk dəfə Təbrizdə gedən Fuad Seyidzadə sonralar Bakıdakı 6 nömrəli orta məktəbi bitirib. Sonra Ə.Əzimzadə adına Rəssamlıq məktəbində oxuyub, Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsində təhsil alıb.

1956-1957-ci illərdə Moskva Memarlıq İnstitutunda təhsilini davam etdirib. Hələ orta məktəbdə ikən onun çəkdiyi rəsmləri xalq rəssamı Mikayıl Abdullayev bəyənib. Görkəmli rəssamın rəyinə əsasən, Fuad rəssamlıq məktəbində birbaşa ikinci kursa götürülüb. Orta məktəb illərində musiqi təhsili də alan Fuadın bu sahədə güclü duyumu maestro Niyazinin diqqətini çəkib. O, Bağır müəllimə təkid edirmiş ki, Fuad dirijorluq sənətinin arxasınca getsin. Amma Fuadın bütün yaradıcılıq sahələrinə olan marağı içindən gələn həvəslə bağlı imiş. Onun arzuları memarlığa yönəlib. Hələ tələbə ikən beynəlxalq müsabiqələrdə iştirak edib, çəkdiyi rəsmlər müxtəlif mükafatlara, təltiflərə layiq görülüb. Onun "Sumqayıt - peyk şəhər" layihəsi Havana şəhərində keçirilən müsabiqədə təltif edilib.

Ötən əsrin 60-70-ci illərində Azərbaycan memarlığının inkişafında səmərəli xidmətləri olan, bu sahədə yaddaqalan əsərlər yaratmış Fuad Seyidzadə qeyri-adi istedada, yüksək bədii zövqə, yaradıcı

təxəyyülə malik idi. F.Seyidzadə öz layihələrində novatorluğa, yeni ideyalara meyil göstərərək klassik, milli, modern üslubların vəhdətinə nail olmağa çalışırdı.

Ayrı-ayrı rayonlarda tikilən qonaq evlərinin layihəsi F.Seyidzadə tərəfindən qeyri-standart hazırlanırdı. Sevastopoldakı "Sapun dağı" adlı abidə kompleksi var. İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsini əbədiləşdirmək üçün ucaldılmış bu abidə heykəltaraş Ömər Eldarovla Fuad Seyidzadənin birgə işinin məhsuludur. F.Seyidzadə heykəltaraş Tokay Məmmədovla da birgə maraqlı layihələr hazırlayıb. Sankt-Peterburqda tikilən "Bakı" restoranı bu birgə işin nəticəsidir.

Fuad Seyidzadə 1972-ci ildə Bakı şəhərində vəfat edib.

## Həsən Məcidov



Həsən Məcidov 1914-cü ildə Bakıda sənətkar ailəsində anadan olmuşdur. O, orta məktəbi bitirərək Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1937-ci ildə buranın memarlıq-tikinti fakültəsini bitirmişdir. Tələbəlik illərində "Azərdövlətlayihə" Dövlət Layihə İnstitutunda texnik, ali məktəbi bitirdikdən sonra isə bu institutunda memar vəzifəsində işləmişdir.

Böyük Vətən müharibəsi illərində Həsən Məcidov Sovet Ordusu sıralarına qatılmış və döyüşlərdə yaralanaraq 1946-cı ildə ehtiyata buraxılmışdır. Bundan sonra o, yenidən yaradıcılıq fəaliyyəti göstərmiş, bir sıra ictimai-mənzil binalarının layihələrini işləyib hazırlamışdır. Bir müddət layihə idarəsinin baş mühəndisi olan Həsən Məcidov 1948-ci ilin fevral ayından "Azərdövlətlayihə" İnstitutunun 2 №-li memarlıq emalatxanasının rəhbəri vəzifəsində işləmişdir. 1954-cü ildən Azərbaycan Politexnik İnstitutunda memarlıq konstruksiyaları dosenti olmuşdur.

Həsən Məcidov Azərbaycan Memarlar İttifaqı Rəyasət Heyətinin üzvü olmuş, XXX və XXXI Bakı şəhər partiya konfranslarında Azərbaycan KP Bakı Komitəsi üzvlüyünə namizəd göstərilmişdir.

Həsən Məcidovun layihəsi əsasında 1960-cı ildə V. İ. Leninin anadan olmasının 90 illiyi münasibətilə hazırkı Muzey Mərkəzi tikilib və 1961-ci ildə Moskvadakı V. İ. Lenin Muzeyinin filialı kimi istismara verilib. Həsən Məcidov Azərbaycanda digər layihələrin də müəllifi olmuşdur – Binədə Bakı təyyarə limanı, "Bakı" mehmanxanası, Naxçıvanda Dövlət Musiqili Dram Teatrının binası (1964), Dzerjinski adına mədəniyyət sarayı (1948, hal-hazırda Dövlət Təhlükəsizlik Xidmətinin Mədəniyyət Evinin binası kimi fəaliyyət göstərir) , Məşədi Əzizbəyov metro stansiyasının binası (hal-hazırda bu bina Koroğlu metro stansiyasının binası kimi fəaliyyət göstərir). Bunlardan başqa, Həsən Məcidov çox sayıda yaşayış binasının, kinoteatrın, klubun və digər növlü binaların da memarıdır.

Həsən Məcidov V Çağırış Azərbaycan Ali Sovetinin (1959–1962) üzvü olmuşdur.

**Dövlət Təhlükəsizlik Xidmətinin Mədəniyyət Evi və ya Şəhriyar adına mədəniyyət evi (keçmiş Dzerjinski adına mədəniyyət sarayı)**



1949-cu ildə Həsən Məcidovun layihəsi əsasında tikilmiş və hazırda Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət mərkəzinin yerləşdiyi bina XX əsr memarlığının nümunəsidir. Bina Stalinist memarlıq üslubunda inşa edilib. İlkin olaraq binanın yerləşdiyi ərazidə tanınmış polyak memarı İosif Ploşkonun layihəsi əsasında 1909-1912-ci illərdə inşa edilmiş Müqəddəs Bakirə Məryəmin kosteli yerləşib. Alman kosteli adlanan dini abidə 1931-ci ildə bolşeviklərin əmri ilə dağıdılıb.

Ötən əsrin 30-cu illərində o zaman vahid bir qurum olan dövlət daxili işlər və təhlükəsizlik orqanları üçün Bakıda mədəniyyət klubunun yaradılması qərarına gəlinir. 1938-39-cu illərdə sonralar "Dzerjinski klubu" kimi tanınan binanın inşası aparılsa da, İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar tikinti işləri yarımçıq qalır. 1947-ci ildə Azərbaycan Dövlət Layihə İnstitutunun layihəsinə əsasən binanın tikintisi tamamlanır.

1951-53-cü illərdə baş mühəndis Həsən Məcidovun rəhbərliyi altında müəyyən tikinti-tamamlama işləri aparılan binada uzun müddət dövlət əhəmiyyətli müxtəlif tədbirlər keçirilmişdir. Binada qurultaylar, Dövlət Təhlükəsizlik Komitəsi, daxili işlər orqanları, sərhəd qoşunlarının yubiley mərasimləri tədbirləri keçirilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2008-ci il tarixli qərarına əsasən Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət mərkəzinin yerləşdiyi bina bu qurumun balansına verilmişdir. Əsaslı təmir-tikinti işlərindən sonra Mədəniyyət Mərkəzinin binasının rəsmi açılışı ilə bağlı mərasim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 14 mart 2009-cu il tarixdə keçirilmişdir.

Yüksək keyfiyyətli səs və işıq avadanlığı ilə təchiz edilən Mədəniyyət mərkəzində 600 nəfərlik konsert salonu, 100 nəfərlik kiçik zal, konfrans zalı və 120 nəfərlik restoran yerləşir.

**Koroğlu metrostansiyası**



Koroğlu metrostansiyası (1967-2011-ci illərdə Məşədi Əzizbəyov metrostansiyası) — Bakı metrosunun Qırmızı xəttinin stansiyasıdır. Əsaslı təmirdən sonra 2011-ci ildə yenidən sərnişinlərin üzünə açılmışdır. Stansiyaya daxil olan qatarlarda Üzeyir Hacıbəyovun, "Koroğlu" operasından fraqment səslənir.

Stansiya 1972-ci il noyabrın 6-da istismara verilmişdir. 120 min əhalisi olan yaşayış massivi şəhərin mərkəzi ilə birləşdirildi.

28 yanvar 2010-cu il tarixli Nazirlər Kabinetinin qərarı ilə iyul ayında stansiya yenidənqurma işlərinə başlamışdır.

Stansiyanın yenidən qurulması 2011-ci ilin noyabr ayında başlanılıb.

30 dekabr 2011-ci ilə qədər stansiya mühəndis, ictimai xadim, inqilabçı olan Məşədi Əzizbəyov adını daşımışdır.

### İlqar Bəylərov



İlqar Xıdır oğlu Bəylərov 31 iyul 1961-ci ildə Laçın şəhərində anadan olmuşdur.

1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri institutunu bitirmişdir. 1983–1988-ci illərdə Bakı Baş Tikinti İdarəsində, sonra SSRİ Elmlər Akademiyasında işləmişdir.

1993–1998-ci illərdə "Asia Plus", 1998–2012-ci illərdə "ATTİLA KM"də direktor vəzifəsində çalışmışdır. Hal-hazırda "İBA GROUP MMC" memarlıq şirkətinin direktorudur.

İlqar Bəylərovun layihələri əsasında Bakıda "Debüt Bank"ın inzibatı binası, "Altes Park", "Altes Plaza", "Sun City" , Bakı Sağlamlıq Mərkəzi, Elmlər Akademiyasının Mərkəzi Kitabxanası, TOP TAUN yaşayış binası, "PALİTRA" yaşayış kompleksi, 8-ci km -də Çoxmərtəbəli Avtomobil Dayanacağı və bir çox başqa çoxmərtəbəli yaşayış evləri, Qazax, Bərdə, Zaqatala, Gəncə, Tovuz, Dəvəçi, Xızı, Daşkəsən, Yevlax, Ağcabədi, Qəbələ, Şuşa, Jəbrayıl, Şəmkir rayonlarında müalicə-diaqnostika mərkəzləri, və xəstəxanalar, sağlamlıq kompleksləri və reabilitasiya mərkəzləri tikilmişdir.

İlqar Bəylərov, 2008-ci ildə "Ustad Memar" sertifikatına, 2012-ci ildə Azərbaycan Respublikasının əməkdar memarı fəxri adına layiq görülmüşdür.

1985-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür.

20 dekabr 2017-ci ildə Azərbaycanda memarlığın inkişafında xidmətinə görə, Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunub.

22 fevral 2017 Beynəlxalq Memarlıq Akademiyasının professorudur.

**Mikayıl Hüseynov**



Mikayıl Ələsgər oğlu Hüseynov 19 aprel 1905-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1922–1929-cu illərdə M. Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunda mühəndis-inşaat fakültəsinin mühəndis-memar ixtisası üzrə təhsil almışdır.

1930–1959-cu illərdə memar, sonradan isə "Azərdövlətmemarlayihə"də (indiki "Azərdövlətlayihə" DBLİ) 1-ci memarlıq emalatxanasının rəhbəri olmuş, 1960–1990-cı illərdə məsləhətçi (konsultant) işləmişdir. 1947–1992-ci illərdə Azərbaycan Memarlar İttifaqının sədri olmuşdur. 1945-ci ildə Azərbaycan SSR EA-nın fizika — texniki elmlər və neft bölməsi üzrə həqiqi üzvü (akademik) oldu. İlk memarlıq və nəzəri əsərlərini 1946-cı ilədək Sadıq Dadaşovla birgə yaratmışdır. 1948–1988-ci illərdə Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib. 1982 ildə Bakı şəhərinin fəxri vətəndaşı seçilmişdir.

1992-ci ildə Beynəlxalq Memarlıq Akademiyasının Moskva şöbəsinə fəxri üzv seçilmişdir. Eyni ildə M. Hüseynovun təşəbbüsü ilə Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyası yaradıldı və ilk prezidenti Mikayıl Ələsgər oğlu Hüseynov oldu.

M. Hüseynov 7 oktyabr 1992-ci ildə Bakıda vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Az vaxtda onun layihələri əsasında Bakı, Gəncə, Naxçıvan, Şəki, eləcə də Düşənbə, Moskva və s. şəhərlərdə mədəni-məişət binaları tikilmişdir. Şərq və Qərb memarlıq məktəbinin sintezindan yararlanan Mikayıl Hüseynov əzəmətli yaşayış və ictimai binaların layihələrini hazırlayıb. Bakıdakı "Alimlər evi" (1946), Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası (1937–1939), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi (1946), Nizami Kino Mərkəzi (1937–1939), Azərbaycan Politexnik İnstitutu (1931–1933), "Bakı Soveti" işçiləri üçün yaşayış (hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti binası, 1938–1941) binaları onun layihələri əsasında inşa olunub. Memarın simmetrik kompozisiya şəklində həll edilmiş layihəsinə əsasən Hökumət Evinin yaninda 10 mərtəbəli 2 yaşayış binası, 16 mərtəbəli evlər (hamısı 1970 illər), Lenin meydanının qərb tərəfində 16 mərtəbəli "Azərbaycan" (1969; SSRİ Nazirlər Sovetinin mükafatı, 1978), şərq hissəsində isə "Abşeron" (1985) mehmanxanaları tikilmişdir. Hüseynovun 1960–1980-ci illər yaradıcılıq fəaliyyətində Bakıda V. İ. Lenin meydanı ansamblının tikintisi əhəmiyyətli yer tutur.

İngiltərə kraliçası II Yelizavetanın himayəsi altında olan "Böyük Britaniya Asiya Cəmiyyəti" tərəfindən 1985-ci ildə təşkil edilmiş "Bakının memarlığı" sərgisində akademik M. Hüseynovun əsərləri nümayiş etdirildi. Sərgi materiallarına keçirilən baxış və müzakirələrdən sonra M. Hüseynovu Böyük Britaniya və İrlandiya Krallığının Asiya cəmiyyətinin Fəxri üzvü seçdilər.

## Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası



Ali musiqi məktəbi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli "Azərbaycan Milli Konservatoriyası"nın təsis edilməsi haqqında fərmanı ilə yaradılıb. 10 avqust 2001-ci il tarixli "Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında" sərəncama əsasən Azərbaycan Milli Konservatoriya tərkibinə Bakı Musiqi Kolleci və Respublika İncəsənət Gimnaziyası daxil olmuşdur.

## Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi



Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi — Bakıda yerləşən elmi tədqiqat müəssisəsi. 1945-ci ildə təşkil olunmuşdur. "Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi" Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır. Muzey 1959 və 1967-ci illərdə xeyli genişləndirilmiş və yenidən qurulmuşdur. Azərbaycan ədəbiyyatına və mədəniyyətinə aid materialların toplanması, tədqiqi, elmi fondlarda qorunması, ekspozisiyada və sərgilərdə nümayiş etdirilməsi ilə məşğul olur.

## "Nizami" kinoteatrı və ya Nizami Kino Mərkəzi



Kinoteatrın binası "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" Azərbaycan Prezidentinin Sərəncamına əsasən yenidən qurulmuşdur. Əsaslı təmirdən sonra 24 noyabr 2011-ci il tarixdə yenidən fəaliyyətə başlamışdır. Açılış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən edilmişdir.

## Azərbaycan Texniki Universiteti



Azərbaycan Respublikasının texniki təhsil sahəsində aparıcı universitetlərindən biri olan Azərbaycan Texniki Universiteti (AzTU) 1950-ci ildə ölkəmizin paytaxtı Bakı şəhərində tərkibində 4 fakültə olmaqla Azərbaycan Politexnik İnstitutu adı altında yaradılıb.

1950-1955-ci illərdə universitetin fakültələri müxtəlif ünvanlarda yerləşən binalarda fəaliyyət göstərib. 1955-ci ildən bütün fakültələri əhatə etməklə universitet indiki binasına köçürülüb. Qərb və şərq memarlığının ən gözəl üslublarını özündə birləşdirən universitetin yaraşıqlı binasında tələbələrin dərin biliklərə yiyələnməsi üçün hər bir şərait yaradılıb**.**